## Biz birlikdə güclüyük

# Hərtərəfli mübarizə

Ölkəmizdə virusla mübarizə davam etdirilir. Mütəmadi olaraq epidemioloji vəziyyət dəyərləndirilir, uyğun addımlar atılır. Qlobal bəlaya qarşı hələ virusun ilk üzə çıxdığı və təhlükənin ölkəmizin sərhədlərindən xeyli uzaqda olduğu zamandan etibarən problemin ciddiliyi və ÜST-ün tövsiyələri nəzərə alınaraq sərhədlər qapadıldı, bütün təhsil müəssisələri bağlandı, kütləvi tədbirlər, idman yarışları təxirə salındı.



Səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi pandemiyanın mümkün fəsadlarını minimuma endirdi. Ölkə prezidenti İlham Əliyevin tapşırığına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədi ilə bölgələri də əhatə etməklə ölkə ərazisində modul tipli xəstəxanalar quraşdırıldı, çarpayı fondu, laboratoriyaların sayı 8 dəfə artırıldı.

Dünyanın heç bir ölkəsindəki səhiyyə sistemində xəstələrin sayının hər ötən an artacağı inanılası deyildi, buna görə də həkim çatışmazlığı ümumi problemə çevrildi. Dövlətimiz bu istiqamətdə də effektiv tədbirlər görərək həmkar ölkələrlə operativ danışıqlar apardı və 5 ölkədən-İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimləri dəvət etdi. Atılan məqsədəuyğun addım sayəsində xəstələrin müalicəsi istiqamətində böyük işlər görüldü.

Ayrı-ayrı ölkələrin təcrübəsinə əsasən xəstəliyin qarşısını almaq üçün sərt məhdudiyyətlər tətbiq edildi. Bu, iqtisadi inkişafa, əhalinin maddi vəziyyətinə mənfi təsir göstərsə də, insanların həyatının və təhlükəsizliyinin qorunması üçün müsbət amillərə səbəb oldu.

Pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən, milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edir.

Ölkəmizdə 2 cəbhədə - həm erməni faşizminə qarşı, həm də gözlə görünməyən düşmənə qarşı müharibə aparılmasına baxmayaraq, xalq öz mübarizəsini qətiyyətlə davam etdirdi. Torpaqlarımız işğaldan azad oldu, zəfər qazanıldı. Ancaq gözəgörünməz düşmənlə də mübarizə heç səngimədi. Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən virusun yayılmasının qarşısının alınması məqsədilə respublikamızda sərtləşdirilmiş karantin tədbirləri tətbiq olundu.

Respublikamızda görülən kompleks tədbirlər sayəsində son zamanlar koronavirusa yoluxma sayında müsbət tendensiya müşahidə olunur. Xəstəlikdən sağalanların sayı gündəlik yoluxmaların sayını üstələyir.

Məlum olduğu kimi, koronavirusa qarşı hazırlanan peyvəndlərin bir çox ölkələrdə tətbiqinə başlanılmışdır. Azərbaycan GAVİ tərəfindən təsis edilmiş COVAX təsisatına qoşulub. Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov koronavirusa qarşı peyvəndləndirmə barədə məlumat verərək bildirib ki, hazırda bir sıra ölkələrdə vaksinasiya prosesinə start verilib. Peyvəndlərin effektivliyi müxtəlif klinik tədqiqatlar əsasında olduqca yüksək (95-98 %) qiymətləndirilmişdir.

Vaksinasiyanın aparılmasının məqsədi əhalidə kollektiv immunitetin yaranmasına nail olmaqdır. Epidemiyanın qanunlarına əsasən istər xəstələnmə nəticəsində təbii, istərsə də, vaksinasiya vasitəsilə yaranan süni immunitet əhalinin üçdə ikisində formalaşarsa epidemik proses sönəcəkdir.

**“Qəbələ”**

# Peyvəndləşmə yeganə çıxış yoludur!

Bütün dünyanın Yeni növ koronavirus (COVİD-19) xəstəliyindən az itkilərlə çıxmaq üçün peyvəndləşməyə hazırlıqlar görülür.

Covid-19 infeksiyası yayılmamışdan əvvəl dünyada hər gün həyatını itirən insanlar vardır. Həmin ölüm halı ilə bağlı əlində ciddi və əsaslandırılmış fakt olmadan onun peyvəndlə əlaqələndirilməsi həqiqəti əks etdirmir. Çünki belə bir qənaətə xüsusi tibbi-ekspert qrupunun rəyindən sonra gəlmək olar. Hələ indiyə qədər COVİD-19 peyvəndinin həyati təhlükəsi ilə əlaqədar hər hansı dəqiq məlumat yoxdur. Dünya üzrə məlumatlar isə bəlkə də, məqsədli xarakter daşıyır, tibbi mərkəz və mütəxəssislərin rəyinə əsaslanmır, qətiyyən həqiqəti əks etdirmir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVİD-19 ilə mübarizədə vaksinin ən səmərəli vasitə olduğunu qeyd edir, lakin o hələ hamıya əlçatan deyil. Həmin təşkilat bir daha epidemiyaya qarşı məhdudlaşdırıcı tədbirlərə riayət etməyə çağırır. Dünyada genetik dəyişikliklərə malik olan virusların aşkar edilməsi, mutasiya olunmuş həmin virusların insandan insana asan ötürülməsi epidemiya əleyhinə tədbirlərin, o cümlədən vaksinasiya tədbirlərinin tezliklə aparılmaqla xəstəliyə qarşı insanların həssaslığını azaltmağı tələb edir. Vaksinasiya COVİD-19-dan qurtuluş yoludur. Dünyada pandemiyanın bitməsinin üç yolu var: ya virus özözünü öldürəcək qədər mutasiyaya uğramalı, ya kollektiv immunitet formalaşmalıdır. Bunun üçün isə dünya əhalisinin 70-80 faizi xəstəliyi keçirib immunitet əldə etməlidir, bu insan cəmiyyətində çox böyük itkilərə səbəb ola bilər,ona görə də ən effektiv və prespektiv yol hesab olunan vaksinasiya tətbiq olunmalıdır. Bu günə qədər vaksinasiya ilə kökü kəsilən təbii çiçək, difteriya, polimielit, qızılca və s. bu kimi xəstəliklərdir.Vaksinasiya süni yolla immunitet əmələ gətirməyə xidmət edən vasitədir . İmmunitet iki yolla yarana bilər - ya xəstəliyi keçirərək, yəni təbii yolla, ya da vaksinlər vasitəsilə, süni yolla. Amma onu da unutmamalıyıq ki, xəstəlik keçirdikdə həyat üçün təhlükə çoxdur. Xəstəliyi təbii yolla keçirənlərin minumal üç ay, maksimal altı ay qoruyuculuğu olduğu göstərilir. Vaksinlərin qoruyuculuğu onun növündən, xəstənin yaşından, yanaşı xəstəliklərin olub-olmamasından, immun vəziyyətindən aslı ola bilər. COVİD-19 vaksini inaktiv, yəni öldürülmüş viruslardan hazırlanmış olsa, güclü immun cavab formalaşdırmaqla belə, yaddaş hüceyrələrinin aktivləşməsinə və qoruyuculuğunun təmin olunmasına kömək edir. Peyvəndin əsas təsir mexanizmi insanın antitel yaratma qabiliyyətini aktiv etməkdir. Məsələn Çinin istehsal etdiyi “Sinovac” inaktiv peyvəndi bu xüsusiyyətə malikdir. Öldürülmüş virusun proteinləri, yəni zülal tərkibli hissəsi və bəzi tərkibləri virusda yerləşir və hüceyrələrimiz o



tərkibi görüb ona qarşı immunitet, antitel cavabı formalaşdırır. Ümumiyyətlə, hazırlanan vaksinlər 90-95 faiz, hətta ondan çox effektivlik təqdim edilir. Respublikamızda tətbiq edilən “Sinovac” peyvəndi də tibbi sınaqlardan nəticəsinə görə çox effektlidir. Belə ki, tibbi sınağa cəlb edilənlərin 91,6 faizində xəstəlik qeyd edilməyib, iki nəfərdə xəstəliyin əlamətləri olmadan yoluxma baş verdiyi, bir nəfərdə isə xəstəliyin yüngül əlamətləri müşahidə edilib.

Çin Xalq Respublikasının istehsalı olan bu peyvəndə dünyanın inkişaf etmiş ölkələrində də tələbat böyükdür. Ona görə ki, xəstəlik ilk olaraq həmin ölkədə başlandığından vaksin istehsalına və tədqiqatlara ilkin olaraq başlanılmaqla təcrübə böyükdür. İnaktivləşdirilmiş “Sinovac”peyvəndinin genetik adı SARS-COV-2, ticarət adı Corona Vac dır. Bu dərman vasitəsi 18 yaşından yuxarı virusa həssas əhali qruplarında COVİD-19 xəstəliyinə qarşı immuniteti təmin etmək üçün tətbiq edilir. Hər nəfərə bir flokonda olan 0,5 ml vaksin vurulur, vaksin çiyinin deltayabənzər əzələsinə əzələdaxilinə yeridilir. Peyvəndləşmə 21 gün fasilə verməklə iki dəfə aparılır. Vaksinasiyadan sonra demək olar ki, heç bir narahatlıq baş vermir. Bütün dərman preparatlarında olduğu kimi bu vaksində də tez keçib gedən və qarşısını almaq mümkün olan əlamətlər olarsa, peyvənd məntəqələrində hazırlıqlı həkim və tibb işçiləri tərəfindən lazımı tibbi yardım göstərilməklə qarşısı tez alınır, peyvənddən sonra bəzən təsadüfü hallarda, iynə vurulan, yəni inyeksiya olunan yerdə ağrı, baş ağrısı, yorğunluq, əzələ ağrısı ola bilər.İstənilən digər vaksinlərdə olduğu kimi, ümumi ehtiyat tədbirləri görülməklə anaflaksiya , qəfil özünnən getmə baş verərsə, bu əlamətlər özünü 5-10 dəqiqə müddətində göstərir. Ona görə də peyvənd olunan şəxslər 30 dəqiqə müddətində peyvənd məntəqəsində gözləməlidirlər. Bütün vaksinlərdə belə halların milyonda bir nəfərdə baş verdiyi statistik olaraq qeyd edilir. Ona görə də peyvəndlər, hətta uşaq yaşlarında aparılan peyvəndlər yalnız tibb müəssələrində aparıla bilər və fərdi xüsusiyyət daşıyan peyvəndə qarşı reaksiyalar zamanı təcilli və təxirəsalınmaz yardım göstərilir. Təşvişlə əlaqəli reaksiyalar peyvənddən asılı olmayan reaksiyalara aiddir. Bura peyvəndləmə mühiti, peyvəndin yeni olması və inyeksiya qorxusu kimi müxtəlif amillər təsir edə bilər. Bütün bu göstərilənlərin insan həyatı üçün heç bir təhlükəsi yoxdur və müasir səhiyyə baş verə biləcək belə fərdi reyaksiyaları dərhal aradan qaldırmaq iqtidarındadır.

Xəstəliyə qarşı peyvəndin aparılmasında çox sayda tibbi əks göstərişlər yoxdur. COVİD-19 peyvəndi 18 yaşından yuxarı şəxslərə aparılır, hamilə qadınlara peyvənd aparılması həmin dövrdə məsləhət görülmür. Bu xəstəliyə düçar olmuşlara xəstəliyin kəskin dövründə peyvənd aparılmır, həmçinin temperaturlu və digər xəstəliklərlə xəstələnənlər sağaldıqdan bir ay sonra peyvəndə cəlb olunurlar. COVİD-19 xəstələri isə sağalmadan 6 ay sonra peyvənd olunurlar. Peyvənd məntəqələrində tibbi əks göstərişlərin müəyyən edilməsində şəxslərə fərdi yanaşılır, allergiyası olan şəxslərə peyvəndin aparılıb-aparılmaması müəyyənləşir. Peyvəndləşmədən sonra şəxsin evdən çölə çıxmaması və başqaları ilə təmasda olmamasına dair bir tələb yoxdur. Peyvənd olunanların ən azı bir il müddətində və ondan çox bu xəstəlikdən qorunduğu məlumatlarda qeyd edilir.

Çox insan vaksinə təhlükəli bir şey kimi baxır, amma əslində belə deyil, vaksin həmin virusla çox zəiflədilmiş dozada mikroştamlarını orqanizmə yeritməklə immunitet yaratmağa kömək edir, biz təkrar həmin virusa yoluxduğumuz zaman orqanizm bunu çox yüngül şəkildə keçirir, yoluxan şəxs xəstəliyi ağır keçirmir, yatağa düşmür, həyatını itirmir. Vaksin qətiyyən təhlükəli deyil və heç kəsi məcbur etmək olmaz ki, sən mütləq vaksin olunmalısan. Hər kəs onun vacibliyini özü anlamalıdır, özü başa düşməlidir ki, bu, bizim üçün önəmlidir. Biz vaksin etdirməklə yenidən epidemiyanın ağırlaşmasının, yeni bir dalğanın gəlməsinin qarşısını ala bilərik. Çünki hazırda yeni bir dalğa gözlənilir. Biz bunu etməklə yarana biləcək ağırlaşmaların da qarşısını almağa kömək edə bilərik. Bunları etməsək bundan pis vəziyyətlə qarşılaşa bilərik, bunu zaman göstərəcək. Bu da virusun mutasiyaya uğramış yeni növündən asılıdır. Yeniləri gəlməyincə, orqanizm köhnə virusa immunitet qazandıqca təhlükəli vəziyyətə qalib çıxmaq olar. Odur ki, əlac özümüzü qorumağa və peyvənd olunmağımıza qalır.

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktor müavini.**

# Peyvənddən sonra immunitet neçə gün müddətində yaranır?

Koronavirus infeksiyasına qarşı immunitet peyvənd olunduqdan 32-45 gün sonra yaranır.

“Qafqazinfo” “RİA Novosti”yə istinadən xəbər verir ki, bunu “Rospotrebnadzor”un Mərkəzi Tədqiqat Epidemiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini Aleksandr Qorelov deyib.

“Antikorların maksimum miqdarı dörd inkubasiya müddətindən sonra(56 gün) istehsal olunur”, - deyə professor qeyd edib.

Onun sözlərinə görə, COVİD-19-dan sağalmış şəxslər 9 ay ərzində peyvənd olunmaya bilərlər.

# Qəbələdə dünənədək 645 tibb işçisi peyvənd olunub

***Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən vaksinasiya tədbirləri çərçivəsində Qəbələ rayonunda da əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunması prosesi uğurla davam edir.***

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, əhalinin peyvəndlənməsi Qəbələdə ötən il istifadəyə verilən modul tipli xəstəxana kompleksində həyata keçirilir. İlkin mərhələdə rayona 900 doza vaksin gətirilib. Vaksinasiya kampaniyasının ilk günlərində rayonda 645 tibb işçisinə peyvəndin birinci dozası vurulub və proses davam edir. Peyvəndin ikinci dozası 21 gündən sonra vurulacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategyiyası” təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, yaşı 65-dən yuxarı olan şəxslər və hüquq mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb edilən heyət peyvəndlənəcək. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

